2013-2014-cü tədris ilində Rusiyanın ali məktəblərində 27, Çinin ali məktəblərində isə 18 azərbaycanlı tələbə dövlət xətti ilə təhsil almaq hüququ əldə etmişdir.

Görüşdə tələbələr təbrik olunmuş və onlara təhsildə uğurlar arzu edilmişdir. Həmin tələbələrin təhsil alacaqları ölkələrdə Azərbaycanı layiqincə təmsil edəcəklərinə və vətənə qayıtdıqdan sonra yüksək səviyyəli mütəxəssis kimi respublikamızın inkişafı prosesinə töhfə verəcəklərinə əminlik ifadə olunmuşdur.

Daha sonra görüşdə iştirak edən tələbələrə təhsil alacaqları ölkə və ali məktəblərlə bağlı zəruri məlumatlar verilmişdir.